

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 230 (23.392)

*6 dekabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov rayonda görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verib.

* * *

Ölkə başçısı İlham Əliyev həmin gün Şamaxı rayonuna səfəri çərçivəsində Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 101-117-ci kilometrlik hissəsinin, Şamaxıda "ASAN Həyat" kompleksinin açılışlarında iştirak edib.

* * *

Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış olub.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.



## N.S.Əliyevanın "Naxçıvan" Universitetinin rektoru təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nurlana Sabir qızı Əliyeva "Naxçıvan" Universitetinin rektoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 dekabr 2019-cu il*

## "Naxçıvan" Universitetinin rektoru kollektivə təqdim olundu

***Dekabrın 5-də "Naxçıvan" Universitetinin rektoru vəzifəsinə təyin edilən Nurlana Əliyeva ali məktəbin kollektivinə təqdim olunub.***

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbov bildirib ki, muxtar respublikamızda bütün sahələrin inkişafı diqqət mərkəzindədir. Təhsilin inkişafına göstərilən böyük diqqət və qayğının nəticəsidir ki, bu sahədə qazanılan uğurlar ildən-ilə artır. Təhsil müəssisələri üçün yeni binalar tikilir, ümumtəhsil məktəbləri ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilir. Bu tədbirlər paytaxt şəhərimiz Naxçıvandan tutmuş ən ucqar dağ və sərhəd kəndlərini əhatə edir. Ali təhsil müəssisələrinə göstərilən diqqət və qayğıdan ətraflı danışan Seymur Talıbov əminliyini





bildirib ki, "Naxçıvan" Universiteti həmişə olduğu kimi, bundan sonra da qabaqcıl təhsil müəssisələri sırasında öz layiqli yerini tutacaq.

Yeni təyin olunan rektor Nurlana Əliyevanı universitet kollektivinə təqdim edən Seymur Talıbov ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

"Naxçıvan" Universitetinin prorektoru Hüseyn Bağırsoylu çıxış edərək deyib ki, Nurlana Sabir qızı Əliyeva 1977-ci ildə Naxçıvan şəhərində anadan olub. 1993-1997-ci illərdə Naxçıvan Dövlət Universitetində Tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə bakalavr təhsili alan Nurlana Əliyeva 1997-1999-cu illərdə Naxçıvan Dövlət Universitetində həmin istiqamət üzrə magistr təhsili alıb. 2001-ci ildən isə "Naxçıvan" Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasında müəllim kimi fəaliyyət göstərir. 2013-cü ildə "Məhəmməd Tağı Sidqi və uşaq ədəbiyyatı" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi alıb. 2017-ci ildə isə "Naxçıvan" Universitetinin Elmi şurasının qərarı ilə universitetin dosenti seçilib. 2018-ci ilin fevral ayından "Naxçıvan" Universitetinin Pedaqoji fakültəsinin dekanı vəzifəsində çalışır.

Universitetin Xarici dillər fakültəsinin dekanı Yasin Babazadə, Xarici dillər kafedrasının müdiri Anara Nəsirli və digərləri də çıxış edərək Nurlana Əliyevanı təbrik edib, ona bu məsuliyyətli vəzifəsində uğurlar arzulayıblar.

"Naxçıvan" Universitetinin rektoru Nurlana Əliyeva göstərilən yüksək etimada görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edib və bu etimadı doğruldacağına söz verib.

**"Şərq qapısı"**

### *İcmal*

## Naxçıvan Muxtar Respublikasında hər il, hər ay tarixə quruculuq, inkişaf salnaməsi yazılır

### *Bütün bunlar Heydər Əliyev ideallarından güc alan, xalqa və dövlətə layiqli xidmət prinsipi üzərində qurulan uğurlu fəaliyyətin nəticəsidir*

*Otuz ildir, blokada şəraitində yaşamasına baxmayaraq, gündən-günə çiçəklənən müasir Naxçıvan öz dinamik sosial-iqtisadi tərəqqisi ilə müstəqil dövlətimizin ən böyük uğurlarından hesab edilir. Heydər Əliyev siyasətinin bütün istiqamətlər üzrə davam etdirilməsi nəticəsində qədim Naxçıvan XXI əsrə qədər keçdiyi yolda ən uca zirvəyə yüksəlib. Əminliklə deyə bilərik ki, bu gün diyarımızın hərtərəfli inkişafına layiqli töhfə verənlər Azərbaycanın şanlı tarixində özünəməxsus yerə sahib olacaqlar. Çünki Prezident cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Naxçıvan strateji mövqedə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Bu mənada, muxtar respublikaya göstərilən diqqət və qayğı, burada aparılan genişmiqyaslı quruculuq, abadlıq işləri Azərbaycan dövlətinin milli maraqlarının tələbidir.*

Muxtar respublikamızda infrastrukturun gücləndirilməsi, insanların həyat şəraitinin, rifah halının daha da yaxşılaşdırılması, aqrar sektorun diqqətdə saxlanılması sosial-iqtisadi strategiyanın başlıca hədəflərindəndir. Ailə təsərrüfatlarının inkişaf etdirilməsi bu məsələdə xüsusi yer tutur. Ona görə ki, həmin təsərrüfatlar daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatı ilə yanaşı, özünüməşğulluğun təmin olunmasına da mühüm töhfə verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası bu baxımdan mühüm əhəmiyyətə malik olub, ailə təsərrüfatlarının biznes planları tərtib edilib, onlara güzəştli şərtlərlə kreditlər və müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları verilib. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması isə bu sahəyə marağı daha da artırıb. Görülən işlərin davamı olaraq noyabrın 2-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində növbəti "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov festivalda iştirak edib.

Növbəti festival digərlərindən bəzi yeni məqamları ilə fərqlənib. Onlardan biri də naxçıvanlı gənclərin öz ideyaları əsasında ailə təsərrüfatlarında hazırlanmış məhsulların qablaşdırılmasına və təqdimatına köməklik göstərmələri, məhsulların satışını həyata keçirmələri idi. Gənclərin hazırladıqları "Kənddən al" mobil tətbiqetməsi də diqqəti cəlb edib. Burada məqsəd muxtar respublikada fəaliyyət göstərən aktiv ailə təsərrüfatçılarının fəaliyyətinə dəstək vermək idi.

Ali Məclisin Sədri festivalda ailə təsərrüfatı sahibləri ilə söhbət zamanı ailə təsərrüfatlarının inkişafının mühüm əhəmiyyətə malik olduğunu bildirib, bundan sonra da müvafiq dövlət qurumları tərəfindən ailə təsərrüfatlarına dəstək göstərilməsi barədə tapşırıqlar verib.

Ötən 24 ildə muxtar respublika sakinlərinin rahat yaşayışının təmin edilməsi üçün aparılan kompleks abadlıq-quruculuq işlərinin səbəbi məhz insan amilinə verilən dəyərdir. Həmin quruculuq işlərindən Şərur rayonunun Yeni Havuş və Xətai kəndlərinə də pay düşüb. Bu yaşayış məntəqələri üçün kənd və xidmət mərkəzləri tikilib, yollar, rabitə, qaz, elektrik xətləri yenidən qurulub, poçt xidməti yaradılıb, sakinlərə nümunəvi tibbi xidmətin göstərilməsi təmin edilib, müasir tədrisin tələblərinə cavab verən məktəb binası inşa olunub. Noyabrın 8-də – Dövlət Bayrağı Günü ərəfəsində Ali Məclis Sədrinin iştirakı ilə həmin sosial obyektlər istifadəyə verilib.

Təhsil hər bir millətin gələcəyini müəyyənləşdirir. Yeni Havuş və Xətai kəndində təhsil ocağının ən müasir tələblər səviyyəsində şagird və müəllimlərin istifadəsinə verilməsi təhsil quruculuğu sahəsində görülən işlərin davamıdır.

Ali Məclis Sədri məktəbin pedaqoji kollektivi ilə görüşü zamanı bir mühüm məsələni də vurğulayıb: ***"Məktəbdə gənclərə təhsil vermək işin bir tərəfidirsə, onların vətənpərvər yetişdirilməsi isə qarşıda duran əsas vəzifədir".*** Bu, bir həqiqətdir ki, bilikli və eyni zamanda vətənpərvər gəncliyin yetişdirilməsi gələcəyimiz baxımından böyük əhəmiyyət kəsb edir. Ali Məclis Sədrinin Yeni Havuş və Xətai kənd məktəbində şagirdlərin mütaliəyə cəlbi, eləcə də yubileyləri qeyd olunan görkəmli şəxsiyyətlərlə bağlı tədbirlərin keçirilməsi barədə tapşırıqlar verməsi də, məhz bu mühüm məramа xidmət edir.

Əhalinin keyfiyyətli içməli su ilə təmin olunması muxtar respublikada aparılan quruculuq işlərinin tərkib hissəsidir. Görülən işlərin davamı kimi Şərur rayonunda da

*Ardı 2-ci səhifədə*

bu istiqamətdə tədbirlər həyata keçirilir. Noyabrın 8-də rayonun Zeyvə və Düdəngə kəndlərində yeni içməli su sistemi istifadəyə verilib.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib, içməli su şəbəkəsinin istifadəyə verilməsini bildirən qurğunu işə salıb. Ali Məclisin Sədri muxtar respublikanın yaşayış məntəqələrində içməli su sistemlərinin qurulması sahəsində həyata keçirilən tədbirlərin davam etdiriləcəyini bildirib, Şərur rayonunun Cəlilkəndində də yeni içməli su şəbəkəsinin qurulması barədə tapşırıqlar verib.

17 noyabr Naxçıvanın şanlı tarixində özünəməxsus yerə malikdir. Çünki üçrəngli Azərbaycan bayrağı ilk dəfə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə məhz 1990-cı ilin noyabrında Ali Məclisin sessiyasında qaldırılıb və Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilib. Həmin dövrdə dahi şəxsiyyət Naxçıvanda müstəqil dövlətçiliyimizin əsaslarını yaratmaqla yanaşı, həm də bütün çətinliklərə baxmayaraq, təbiətin qorunması qayğısına qalıb. Bu gün də muxtar respublikada təbiətin zənginləşdirilməsi və yaşıllıqların artırılması sahəsində ardıcıl tədbirlər görülür.

Noyabrın 9-da muxtar respublikada Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününə həsr olunmuş iməcilik keçirilib, Naxçıvan şəhərində yeni badam bağı salınıb. Ali Məclisin Sədri iməcilikdə iştirak edib, mövsüm ərzində badam bağında əkin işlərinin başa çatdırılması və yaşıllaşdırma tədbirlərinin davam etdirilməsi barədə müvafiq tapşırıqlar verib.

Muxtar respublikada bütün sahələrdə əldə edilən nailiyyətlər onun ölkəmizin tərəfdaşı olan dövlətlərlə iqtisadi-ticarət, humanitar və digər sahələrdə əməkdaşlığının inkişaf etdirilməsinə də əsaslı zəmin yaradıb.

Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Litva Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikas ilə görüşüb.

Muxtar respublikada iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdiyini diqqətə çatdıran Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Litva arasında kənd təsərrüfatı, təhsil və turizm sahələrində əməkdaşlıq üçün potensialın olduğunu bildirib.

Noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə Respublikasının Diyanət İşləri Başqanı Əli Erbaş ilə görüşüb.

İslamda dini dözümlülük və tolerantlıq ənənələrinin yaşadılmasından, dini-mənəvi dəyərlərin olduğu kimi insanlara çatdırılmasının vacibliyindən danışan Ali Məclisin Sədri ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında bu sahədə görülən işlərin əhəmiyyətini qeyd edib.



Ulu öndərimizin düşünülmüş və uzaqgörən siyasətində blokada vəziyyətində yaşayan Naxçıvana diqqət və qayğı həmişə üstün yer tutub, dahi şəxsiyyət siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində Naxçıvanın təhlükəsizliyinin möhkəmlənməsinə və dayanıqlı inkişafına xüsusi diqqət və qayğı göstərib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən muxtar respublikanın təhlükəsizliyi, sosial-iqtisadi inkişafı məsələlərini xüsusi vurğulaması bir daha onu göstərir ki, ölkə rəhbəri bütün məsələlərdə olduğu kimi, Naxçıvanın daha parlaq gələcəyinin təmin olunmasında da dahi şəxsiyyətin siyasi kursuna sadiqdir.

Dövlət başçısının qeyd etdiyi kimi, çətin coğrafi vəziyyəti nəzərə alınaraq bu gün, ilk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Məhz bunun nəticəsidir ki, muxtar respublikamızın hərbi təhlükəsizlik sistemini daha da gücləndirmək üçün tarixi əhəmiyyətə malik qərarlar qəbul olunub. Günnüt zəfəri bir daha Əlahiddə Ümumqoşun Ordunun yüksək döyüş qabiliyyətinə malik olduğunu sübut edib. Diyarımızın enerji və ərzaq təhlükəsizliyi də hərbi məsələlər qədər əhəmiyyətlidir. Qürurla deyə bilərik ki, 2003-cü ildə muxtar respublikada bir elektrik stansiyası var idisə, hazırda 9 elektrik stansiyası mövcuddur. Onlardan da 6-sı bərpaolunan enerji sistemləridir. ***"Bu, doğrudan da tarixi nailiyyətdir"***, – deyən dövlətimizin başçısı bunun muxtar respublikanın təhlükəsizlik məsələsi olduğunu da vurğulayıb.

Onu da qeyd edək ki, Naxçıvanda ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində də tarixi nailiyyət əldə edilib. Diyarımızda kənd təsərrüfatının inkişaf etdirilməsi, qapalı suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması da bu sahədə reallaşdırılan tədbirlərin davamıdır. Ali Məclis Sədrinin qeyd etdiyi kimi, 2003-cü ildə muxtar respublikada 39 min hektar sahə əkinəyararlı torpaqlar idisə, Heydər Əliyev Su Anbarının istifadəyə verilməsindən, yeraltı suvarma şəbəkələrinin qurulmasından sonra bu gün həmin rəqəm artıq 62 min hektara çatıb. Bu, muxtar respublikanın özünü ərzaqla tam təmin etməsinə şərait yaradır.

Yeni Azərbaycan Partiyası ümummilli siyasi qüvvə kimi müstəqil dövlətçilik, qanunçuluq, Azərbaycançılıq, varislik prinsiplərinə söykənərək uzun illərdir, ölkəmizin, o cümlədən muxtar respublikamızın inkişafını təmin edir. 27 il müddətində xalqımız və milli dövlətimiz əsrlərə bərabər yüksəliş yolu keçib. Məhz buna görədir ki, partiyaya üzv olanların sayı hər il daha da artır. Hazırda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 56 mindən çox üzvü vardır. Noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun sədrliyi ilə təşkilatın Siyasi Şurasının iclasında "Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyəti və qarşıda duran vəzifələr" müzakirə olunub.

Ali Məclisin Sədri noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümünün tamam olduğunu bildirib, bu münasibətlə partiyanın muxtar respublika təşkilatının üzvlərini, təəssübkeşlərini və bütün muxtar respublika əhalisini təbrik edib.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının qərarı oxunub, Siyasi Şuranın və İdarə Heyətinin yeni tərkibi təsdiq edilib.

Qarşıda duran vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıqlar verən Ali Məclisin Sədri deyib: ***"Bizim vəzifəmiz partiya işini düzgün təşkil etməklə ulu öndərin müəyyənləşdirdiyi vəzifələrin reallaşdırılmasına nail olmaqdan ibarətdir. Partiyamızı və ölkəmizi ümummilli liderin yolu ilə aparan ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycanın gələcəyi Yeni Azərbaycan Partiyası ilə bağlıdır! Azərbaycanın gələcəyi Heydər Əliyevlə və onun siyasəti ilə bağlıdır"***.

Noyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min ilə görüşüb.

Muxtar respublikanın ərazisi, əhalisi və inkişafı barədə məlumat verən Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikası arasındakı əlaqələrə diqqəti çəkib. Ali Məclisin Sədri Naxçıvanda avtomobil istehsalı və yeni texnologiyaların tətbiqi sahəsində Çin şirkətləri ilə əməkdaşlığın olduğunu bildirib, Çin hökuməti tərəfindən muxtar respublikada kənd təsərrüfatının inkişafına göstərilən dəstəyə görə təşəkkür edib.

Ötən illər ərzində muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Şahbuz rayonunda da geniş quruculuq işləri aparılıb, yaradılan möhtəşəm infrastruktur nəticəsində bu füsunkar bölgəmiz turizm mərkəzinə çevrilib. Ötən ay bu sıraya rayonun Türkeş kəndi də daxil olub. Kənd və xidmət mərkəzlərinin, məktəb binasının, avtomobil yolunun tikilməsi bu yaşayış məntəqəsini müasir Azərbaycan kəndinə çevirib.

Noyabrın 21-də – Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümündə Türkeş kəndində həmin sosial obyektlər istifadəyə verilib. Ali Məclisin Sədri açılış tədbirlərində iştirak edib.

Qeyd etmək yerinə düşər ki, Türkeş muxtar respublikanın məhsuldar torpaqlara və geniş ərazilərə malik olan yaşayış məntəqələrindəndir. Burada aparılan kompleks quruculuq işləri isə məskunlaşmanı, insanların torpağa bağlılığını artıracaq, yeni-yeni ailə təsərrüfatları yaradılacaq. Budur, ötən əsrin 90-cı illərində kənddən köçüb gedənlər bu gün geri qayıdırlar. Artıq iki ailə kənddə məskunlaşıb. Yəni dövlətimiz kəndin inkişafı, bu yurd yerində insanların rahatlığının tam təmin edilməsi üçün bütün işləri görüb, Türkeşin siması tamamilə dəyişib. Kənd sakinlərinin yaradılan şəraitdən səmərəli istifadə edəcəkləri isə şübhəsizdir.

Sakinlərlə görüşündə Ali Məclisin Sədri bu barədə danışıb, Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü münasibətilə onları təbrik edib, Türkeş kəndinin muxtar respublikanın abad yaşayış məntəqəsi kimi daha da inkişaf edəcəyinə əminliyini bildirib.

Naxçıvan Muxtar Respublikasında ekologiyanın zənginləşdirilməsi istiqamətində aparılan işlər uğurla davam etdirilir. Bunun nəticəsidir ki, vaxtilə ərazisinin yalnız 0,6 faizi yaşıllıq olan muxtar respublikada bu rəqəm artıq 20 faizə çatıb. Bu tədbirlərin davamı olaraq noyabrın 23-də payız mövsümünün növbəti iməciliyi keçirilib. Ali Məclisin Sədri iməcilikdə iştirak edib, meyvə tingləri əkib.

Muzeylərə qayğı sahəsində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ənənələr bu gün muxtar respublikada da uğurla davam etdirilir. Ali Məclis Sədrinin təşəbbüsü ilə mövcud muzeylərin iş şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər tariximizə, mədəniyyətimizə, milli dəyərlərimizə göstərilən qayğının ifadəsidir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 2 avqust tarixli "Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalaması, bununla bağlı Tədbirlər Planının təsdiq edilməsi, noyabrın 30-da isə Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması tariximizə və milli mədəniyyətimizə göstərilən yüksək qayğının daha bir ifadəsidir.

Yubiley tədbirində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 95 illik yubiley münasibətilə muzeyin kollektivini və tədbir iştirakçılarını təbrik edərək deyib: ***"Müdrik fikirlərin birində deyilir ki, tarix gələcək haqqında elmdir. Bu fikirdə böyük həqiqət vardır. Əgər biz tariximizə sahib çıxır, onu öyrənir və təbliğ ediriksə, deməli gələcəyimiz üçün əsaslı təminat yaratmış oluruq. Naxçıvan Dövlət Tarix Muzeyinin bundan sonrakı fəaliyyəti də keçmişimizi yaşatmaq və gələcəyimizə xidmət amalı olmalıdır"***.

Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası təltiflərinin təqdimatı muzey işçilərinin fəaliyyətinin dövlətimiz tərəfindən daim yüksək qiymətləndirildiyini bir daha göstərir.

*Tarixi şəxsiyyətlərin həyatda qoyduğu iz, keçdiyi şərəfli ömür yolu onların yaşadıqları dövrün inkişaf salnaməsidir. Bu baxımdan qürurla deyə bilərik ki, Heydər Əliyev ideallarından güc alan, xalqa və dövlətə layiqli xidmət prinsipi üzərində qurulan uğurlu fəaliyyət nəticəsində Naxçıvanın 24 illik tarixinə çox böyük quruculuq, yüksəliş salnaməsi yazılıb. Prezident cənab İlham Əliyevin dediyi kimi:* ***"Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir".***

**Rauf KƏNGƏRLİ**

# Hesabat yığıncağı keçirilib

*AMEA Naxçıvan Bölməsinin 2019-cu ildəki elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına dair hesabat yığıncağı keçirilib.*

Hesabatı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq 2019-cu ildə AMEA Naxçıvan Bölməsində həyata keçirilən işlər haqqında məlumat verib.

Bildirilib ki, cari ildə bölmə əməkdaşlarının 18 monoqrafiyası, 8 kitabı, 1 kitabçası, 3 metodik vəsaiti, 549 elmi məqaləsi, 222 konfrans materialı, 7 tezisi olmaqla, 808 elmi əsəri çap olunub, 4 buklet və bir xəritə tərtib edilib. Monoqrafiyalardan 4-ü, elmi məqalələrdən 73-ü, konfrans materiallarından 57-si, tezislərdən 1-i xaricdə nəşr olunub. "Naxçıvan Duzdağı" kitabı, "Nemətullah Naxçıvani: taleyi və sənəti" və "Ərtoğrol Cavid: taleyi və sənəti" məqalələr topluları çap edilib, "Naxçıvan tarixi mənbələrdə" kitabı isə çapa təqdim olunub.



Qeyd olunub ki, hesabat ili ərzində AMEA Naxçıvan Bölməsi ilə Türkiyə Cümhuriyyətinin İğdır Universiteti arasında elmi əlaqələrə dair memorandum, bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu ilə Şimali Makedoniya Respublikasının "Vision" Universiteti arasında əməkdaşlıq protokolu imzalanıb.

Bölmənin Elmi-təşkilat şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov bölmənin illik elmi və elmi-təşkilati fəaliyyəti barədə məruzə ilə çıxış edərək bildirib ki, cari ildə bölmədən seçilən 2 akademik və 7 müxbir üzvün il ərzində 136 əsəri, o cümlədən 6 monoqrafiyası, 1 kitabçası, 91 elmi məqaləsi, 38 konfrans materialı çapdan çıxıb. Cari ildə bölmə üzrə 2 respublika səviyyəli qrant layihəsinin icrası başa çatıb, 2-si beynəlxalq və 1-i respublika səviyyəli olmaqla, 3 qrant layihəsinin icrası isə hazırda davam etdirilir.

Vurğulanıb ki, hesabat dövrü ərzində bölmənin gənc əməkdaşlarının 3 monoqrafiyası, bir tərcümə kitabı, 142 məqaləsi, 60 konfrans materialı, 5 tezisi olmaqla, 211 əsəri çap olunub.

2019-cu ildə bölmədə bir beynəlxalq, bir respublika, 22 elmi konfrans, 17 iclas, oxunması zəruri olan 11 kitabın müzakirəsi, 20 kitab və monoqrafiyanın, həmçinin Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin hədiyyə etdiyi qədim əlyazma və kitabların təqdimatı keçirilib.

Bölmənin elmi-tədqiqat institutlarının direktorları, AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri, professorlar Əbülfəz Quliyev, Fəxrəddin Səfərli, Tofiq Əliyev hesabat məruzəsi ətrafında çıxışlar ediblər.

Sonra ictimai və humanitar elmlər sahəsində il ərzindəki fəaliyyətlərinə görə fərqlənənlər – İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova, Bioresurslar İnstitutunun böyük elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru, dosent Mahir Məhərrəmov bölmənin təsis etdiyi "İlin alimi" fəxri diplomu ilə təltif ediliblər.

**Xəbərlər şöbəsi**

# “Naxçıvanın belə sürətli tərəqqisi ölkədə gedən sosial-iqtisadi inkişafın davamıdır”

*Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 9 aprel tarixli Sərəncamına əsasən Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyi Naxçıvan Muxtar Respublikasında da yüksək səviyyədə qeyd olunub, yubiley tədbiri çərçivəsində Ordubad rayonunun Dırnıs kəndində Allahşükür məscidi istifadəyə verilib. Yubiley tədbiri iştirakçılarından bir qisminin səfər təəssüratlarını oxucularımıza da təqdim edirik.*

***Allahşükür Paşazadə – Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam:*** – Mən həyatda çox hədiyyələr almışam.



Onlardan ən dəyərlisi isə ümummilli lider Heydər Əliyevin adına olan ordendir. Onu da deyim ki, ilk dəfədir, mənim adıma bir məscid tikilib. Bu hədiyyə üçün, eyni zamanda yubileyimin Naxçıvanda yüksək səviyyədə qeyd olunmasına görə Ali Məclisin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımı bildirirəm. Buradakı həmvətənlərimizə, məscid tikintisində bütün zəhməti keçənlərə təşəkkür edirəm. Bu məscid mənim üçün ən böyük hədiyyədir.

20 Yanvar hadisələri zamanı Mixail Qorbaçova dediyim sözlərin arxasında məhz Naxçıvan sakinləri, Naxçıvana qazi seçilərək buraya gəldiyim vaxtdan etibarən yerli əhali ilə görüşlərdə onlardan aldığım güc, eləcə də Naxçıvandan SSRİ Ali Sovetinə və Azərbaycan Milli Məclisinə deputat seçilməyim kimi səbəblər dururdu. Mən qorxmurdum. Ona görə ki, Naxçıvan camaatı mənə etibar edərək mandat vermişdi. Bu etimada görə də seçicilərimin sözlərini lazım olan yerlərə çatdırırdım. Mənim dünyada tanınmağımda, nüfuz qazanmağımda Naxçıvanın böyük rolu və mən deyərdim ki, xüsusi yeri var. Mən bu diyara gələndə adıma məscid veriləcəyini bilmirdim. Bu məsciddə insanların namaz qılması, ibadət edə bilməsi mənim üçün böyük bir xoşbəxtlikdir. Allah bu xoşbəxtliyi hər insana nəsib etmir.

***Milix Yevdayev – Dağ Yəhudiləri Dini İcmasının rəhbəri:*** – Belə bir deyim var:



hərdən yuxu kimi gördüyüm dünya yuxuma girəndə həqiqət olur. Bu gün Naxçıvanda gördüklərim o həqiqətdir. İnanın ki, bunların hamısı Azərbaycan torpağında, bu məmləkətdə mümkün olan hallardır. İlk dəfə deyil ki, mən Naxçıvana gəlirəm, əvvəllər də burada olmuşam. Bu diyar Azərbaycanın ən səfalı guşələrindən biridir. Naxçıvanın bu gün belə sürətli tərəqqisi ölkədə gedən sosial-iqtisadi inkişafın davamıdır. Yerli sakinlərlə ünsiyyətdən sonra bu qədər məsafəni qət edib yenidən buraya gəlməyimə şad oldum. Yəhudi xalqı hər zaman Azərbaycan xalqı ilə qardaş olub, onun şad günündə sevinib, çətin günündə də yanında dayanıb. Mən Azərbaycanımıza xoş günlər, sevincli anlar arzulayıram. Müdriklər deyiblər: xoşbəxt o kəslərdir ki, evində xoşbəxtdir. Azərbaycan bizim evimizdir. Biz də bu xalq ilə bərabər bu ölkənin xoşbəxtliyi üçün çalışmalıyıq ki, o sevincin uca zirvəsinə qalxa bilək.

***Aleksandr İşein – Azərbaycan Yeparxiyasının Arxiyepiskopu:*** –



Naxçıvanın çox gözəl təbiəti və insanları var, burada sabitlik, sakitlik və gözəllik hökm sürür. Bütün bunlar belə deməyə əsas verir ki, bu yurdun insanları mehribandırlar. Burada yollar gözəldir, həyat da gözəldir. Ən əhəmiyyətlisi isə Nuh Peyğəmbərin məzarüstü türbəsinin belə gözəl şəkildə tikilməsidir. Nuh bəşəriyyətin ikinci atası hesab olunur. Çox sevindirici haldır ki, bu yerdə onun xatirəsi əziz tutulur, yaşadılır. Şeyx Həzrətlərinə Ordubadda belə qiymətli hədiyyənin edilməsi təqdiredici hal, ona bəslənilən sevginin, hörmətin göstəricisidir. Bu həm də onu göstərir ki, Azərbaycanlılar dininə, ənənələrinə sıx bağlıdırlar. Əminəm ki, Azərbaycanın bu qədim diyarı bundan sonra da çiçəklənəcək və inkişaf edəcək.

***Mübariz Qurbanlı – Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri:*** –



Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyi münasibətilə ölkəmizdə silsilə tədbirlər həyata keçirilir. Növbəti belə tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun şəxsi təşəbbüsü ilə Naxçıvanda yüksək səviyyədə təşkil olundu. Buna görə muxtar respublika rəhbərinə öz dərin minnətdarlığımı bildirirəm. Naxçıvan ictimaiyyətinin nümayəndələri, ziyalılar həmin tədbirdə iştirak etdilər, ətraflı çıxışlar oldu. Ordubadda isə bu münasibətlə yeni məscid açıldı. Məscid inşa etmək savab əməldir, İslam, Allah yolunda belə işlərin görülməsinin böyük savabı vardır. O cümlədən bu işin ictimai əhəmiyyəti də böyükdür, vətəndaşların ibadəti üçün onlara qiymətli bir hədiyyədir. Cənab Sədrin göstərişi ilə məscidə Şeyx Həzrətlərinin adının verilməsi hər birimizi çox sevindirdi. Şəxslərin adına məscid inşa olunması həmin insanın ölkəmizə və dinimiz qarşısındakı xidmətlərinə görədir. Məhz Şeyxülislamın xidmətlərinə görə də ona burada belə dəyərli hədiyyə təqdim edildi. Bu həm xalqa, həm də Allahşükür Paşazadəyə verilən yüksək dəyərdir. Naxçıvanla bağlı onu deyə bilərəm ki, bura nəqşi-cahandır, çiçəklənən bir yurdumuzdur. Hər dəfə buraya gəlişimdə yeniliklərlə qarşılaşıram, inkişafı, tərəqqini görürəm və çox sevinirəm.

**Xəbərlər şöbəsi**

# Qapalı suvarma şəbəkələri kənd təsərrüfatının inkişafına töhfə verir

*Meliorasiya və su təsərrüfatı sahəsi ölkənin sosial-iqtisadi inkişafında, xüsusilə də əhalinin məşğulluğunda müstəsna rola malikdir. Elə bu səbəbdən də iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən muxtar respublikada aqrar, o cümlədən meliorasiya və su təsərrüfatı sahəsində aparılan islahatlar, genişmiqyaslı layihələrin icrası bu sahənin inkişafı istiqamətində böyük əhəmiyyət kəsb edir. Bütün bunlar, nəticə etibarilə, məhsul istehsalının ildən-ilə artmasına və muxtar respublikada əsası hələ illər öncə qoyulan ərzaq təhlükəsizliyinin təmin olunmasına geniş imkan yaradır.*

Torpaq bütün dövrlərdə zəhmət adamlarının iş yeri olub. Muxtar respublikamızda hələ neçə-neçə əsrlər əvvəl formalaşan əkinçilik mədəniyyəti insanlarla torpaq arasında böyük bağlılıq yaradıb. Bu gün qədim əkinçilik mədəniyyətinin yaşadılması istəyindən irəli gələn işlərin həyata keçirilməsi, əkin sahələrinin meliorativ cəhətdən münbitləşdirilməsi və suvarma suyuna olan tələbatın səmərəli ödənilməsi, əhalinin həyat şəraitinin və sağlamlığının təmin edilməsi ilə yanaşı, gələcək nəsil üçün də böyük imkanlar yaradır, əkinçiliyin bir ənənə kimi yaşadılmasını əsaslandırır. Zaman xışın, kotanın yerini müasir traktor və kombaynlara verdiyi kimi, son dövrlərin iqlim dəyişikliyi də əkin sahələrinin suvarılmasında yeni sistemlərə ehtiyacın zəruriliyini meydana çıxarmışdır. Belə ki, artıq muxtar respublikamızda əkinçiliyin inkişafı və əkin sahələrini fasiləsiz olaraq suvarma suyu ilə təmin etmək üçün müasir meliorasiya və irriqasiya sistemləri qurulur, mütərəqqi suvarma metodları tətbiq edilir. Bu isə yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması ilə nəticələnir.

Meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi göstərir ki, son illərdə muxtar respublikada 5 min hektardan artıq sahədə suvarılan torpaqların su təminatı yaxşılaşdırılıb, 10 min hektardan artıq yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə daxil edilib.

Mövcud olan iqlim şəraiti onu deməyə əsas verir ki, muxtar respublikamızda suya olan tələbat digər regionlara nisbətən daha çoxdur. Su ehtiyatlarının qıtlığı, onların bölgələr üzrə qeyri-bərabər paylanması və əsasən də əkinçilik bölgələrində torpaqların şoranlaşmaya meyilli olması yeni suvarma üsullarının yaradılması işini zərurətə çevirir. Buna görə də əkinəyararlı torpaqlarda şoranlaşma və bataqlaşma ilə mübarizə aparmaq son illər qarşıya qoyulan əsas vəzifələr sırasındadır.





Torpaqların suvarma suyuna olan ehtiyacının ödənilməsi bol məhsul istehsalında ən vacib amillərdəndir. Artıq uzun illərdir, müasir suvarma texnologiyalarının, rentabelli suvarma şəbəkələrinin qurulmasına, mütərəqqi suvarma metodlarının tətbiqinə üstünlük verilməsinin nəticəsidir ki, torpaqların su təminatı yaxşılaşdırılır, suvarma şəbəkələri qurulur, kompleks işlər görülür. Tikilən anbarlar, çəkilən kanallar minlərlə hektar əkin sahəsinin suvarılmasında həlledici rol oynayır. Qeyd etmək yerinə düşər ki, bu gün muxtar respublikada 162 min hektar əkinəyararlı torpaq sahəsinin 62 min hektara yaxını suvarılan ərazilərdir.

Bu gün muxtar respublikamızda suvarılan torpaq sahələrinin genişləndirilməsi, su təminatı olmayan və uzun müddət əkilməyən torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, su itkisinin qarşısının alınması üçün yaradılan qapalı suvarma şəbəkələri mütərəqqi suvarma üsulu modelidir.

Qapalı suvarma şəbəkələrinin tikilməsi mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsi və suvarmanın təkmilləşdirilməsi, istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə daxil edilməsi deməkdir. Bu şəbəkə müxtəlif materiallardan hazırlanmış boru kəmərləri ilə tikilən nəqletdirici və tənzimləyici sistemdir. Qapalı suvarma şəbəkəsi daha mürəkkəb relyefli sahələrdə tətbiq edilir ki, bu da suyun yer səthinə çıxaraq paylanması və sahələrə növbə ilə verilməsi, suyun əkin sahələrinə itkisiz və öz axını ilə çatdırılmasını təmin edir.

Bu üsul suvarmanın faydalı iş əmsalının xeyli yüksək olması, torpaqdan istifadə əmsalının 10-15 faiz artması ilə yanaşı, həm də su bölgüsünün və suvarmanın avtomatlaşdırılması və mexanikləşdirilməsinə şərait yaradır. Ümumiyyətlə, qapalı suvarma şəbəkəsinin tikintisi əlverişli və perspektivli hesab edilir. Beləliklə, qapalı suvarma şəbəkəsindən istifadə həm suvarmanın məsrəfini azaldır, həm də su sərfiyyatını minimuma endirir.

İqtisadi səmərəliliyi təsdiq olunduğu üçün son illərdə Babək, Culfa və Kəngərli rayonlarının, ümumilikdə, 4500 hektara yaxın ərazisində yeni qapalı suvarma şəbəkəsi tikilib. Şahbuz rayonunun Türkeş kəndinin 343 hektar ərazisində isə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılıb. Bütün bunlar torpaqların su təminatının yaxşılaşdırılması, suvarılan ərazilərin şoranlaşmasının qarşısının alınması və şoranlaşmış torpaqların münbitləşdirilməsi istiqamətində əkin sahələrinin suvarma suyuna olan tələbatının tam ödənilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamıdır.

Qapalı suvarma şəbəkələrinin istifadəyə verilməsi əkinçiliyin inkişafı, əkinəyararlı torpaqlardan səmərəli istifadə, əhalinin məşğulluğunun artırılması ilə yanaşı, muxtar respublika ərazisində yaşıllıq sahələrinin genişlənməsinə də səbəb olur. Beləliklə, bu mütərəqqi suvarma şəbəkəsinin əhəmiyyəti, ilk növbədə, suya qənaət, susuz sahələrin əkilməsi, məhsul istehsalının çoxaldılmasıdırsa, həm də zəhmət adamlarının, bu əkin sahələri və suvarma şəbəkəsi hesabına özlərinə yeni iş yeri tapması, ailə büdcələrini formalaşdırmasıdır.

Kəngərli rayonunun Yurdçu kəndində yeni qapalı suvarma şəbəkəsinin açılışı zamanı Ali Məclisin Sədri demişdir: ***“Su torpağa həyat verir. Qapalı suvarma şəbəkəsinin əhatə etdiyi 60 hektara yaxın ərazinin 56 hektara yaxını pay, 2 hektardan çoxu həyətyanı, 3 hektara yaxını isə yaşıllıqların altında olan torpaqlardır. Ərazinin su təminatı imkan verəcəkdir ki, torpaqlar əkilsin, yaşıllıqlar artsın, bol məhsul istehsal olunsun və əhalinin məşğulluğu təmin edilsin. Torpaqların su təminatının yaxşılaşdırılması ötən illər ərzində Kəngərli rayonunda görülən ən əhəmiyyətli və vacib tədbirlərdəndir. Çünki məhsul istehsalının artması rayonda əhalinin məskunlaşmasını və məşğulluğunu təmin edir, rayonun gəlirləri artır. Böyükdüz kəndi ərazisində qurulan yeraltı şəbəkə hesabına 50-dən artıq sakin işlə təmin olunmuşdur. Məşğulluğun təmin olunması, məhsul istehsalının və əhali gəlirlərinin artması isə muxtar respublikanın inkişafına və ərzaq təhlükəsizliyinə imkan verir”.***

Demək olar ki, artıq muxtar respublikada suvarma sistemlərinin normal istismarının təşkil edilməsi, torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi üçün hərtərəfli şərait yaradılıb. Belə nəticəyə gəlmək olar ki, qapalı suvarma şəbəkəsi iqtisadi cəhətdən səmərəli bir sistem olmaqla, digər suvarma üsullarından öz üstünlükləri ilə fərqlənir. Buna görə də bu sahəyə diqqətin artırılması, yeni qapalı suvarma şəbəkələrinin tikintisi öz aktuallığını saxlamaqdadır.

**Sevinc TAĞIYEVA**
***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

# Hüseyn Cavidin anım günü qeyd olunub



*Dünən Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində dahi şair və dramaturqun anım gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Hüseyn Cavidin məqbərəsi ziyarət edilib.*

Muzeydə davam edən tədbiri giriş sözü ilə Hüseyn Cavid ev-muzeyi və xatirə kompleksinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov açaraq böyük Azərbaycan şairinin həyat və yaradıcılığından, Cavid şəxsiyyətinə və irsinə dövlət qayğısından danışıb. Bildirilib ki, məhz görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin böyük qayğısı və diqqəti nəticəsində Hüseyn Cavidin 100 illik yubileyi Azərbaycanda təntənə ilə keçirilib, cənazəsi Uzaq Sibirdən Azərbaycana gətirilərək doğulduğu Naxçıvan torpağına tapşırılıb. Bakı və Naxçıvan şəhərlərində ustad sənətkarın abidələri ucaldılıb, xatirə muzeyləri yaradılıb.

Sonra filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimli “Azərbaycan ədəbiyyatında repressiya dövrü”, pedaqogika üzrə elmlər doktoru, dosent Kamal Camalov “Əbədiyaşar Cavid”, Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksinin bələdçisi Sona Mirzəyeva “Vətənə qayıdış” mövzularında çıxış ediblər.

Tədbirin sonunda görkəmli şairin şeirləri bədii qiraət edilib, muzeyin ekspozisiyasına baxış olub.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*Azərbaycan xalq musiqi sənətinin kökləri çox qədim dövrlərə gedib çıxır. Heç də təsadüfi deyil ki, mədəniyyət tariximizi araşdıranlar tədqiqatlar zamanı bölgədə musiqi alətlərinin yaranması ilə bağlı elmi faktları da əsas götürürlər. Çünki musiqi o zaman kütləvi xarakter alaraq xalqın mədəniyyətinə hopur ki, onu ifa edəcək musiqi alətləri yaradılır. Aparılan arxeoloji qazıntılar zamanı ən qədim maddi mədəniyyət nümunələri sırasında musiqi alətlərinə də rast gəlirik.*

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Qədim musiqi alətlərimizə yeni həyat verilib



Tədqiqatlar sübut edib ki, yaranma tarixi eramızdan çox-çox əvvəllərə təsadüf edilən simli, nəfəsli və zərb musiqi alətlərinin çoxsaylı növləri orta əsrlərdə Azərbaycan ərazisində geniş yayılıb və xalqımızın mədəni həyatında uzun illər istifadə olunub. Ümumiyyətlə, X əsrdən etibarən Azərbaycanın orta əsr musiqi mədəniyyətində geniş inkişaf mərhələsi başlayıb. Həmin dövrlərdə istifadə olunan musiqi alətlərinin sayı 60-dan çox olub. Bu alətlər haqqında dahi Nizami Gəncəvinin, XVI əsrdə yaşayıb-yaratmış görkəmli şair Məhəmməd Füzulinin, Şərq musiqi mədəniyyətinin yaradıcılarından sayılan Səfiəddin Urməvinin, Əbdül Qadir Marağayinin, Mir Möhsün Nəvvabın əsərlərində məlumat verilir. XV-XVI əsrlərdə yaşayıb-yaratmış istedadlı rəssamlarımız Sultan Məhəmməd, Ağa Mirək, Mirzə Əli, Müzəffər Əli, Mir Səid Əlinin miniatür sənət əsərlərində orta əsrlərdə istifadə edilmiş musiqi alətlərinin çox geniş təsviri verilib.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da qədim musiqi alətləri geniş yayılıb. Sevindirici haldır ki, əsrlərboyu mədəni irsinə sahib çıxan xalqımız qədim xalq çalğı alətlərini də qoruyub saxlayıb, gələcək nəsillərə ötürüb. Muxtar respublikamızda bu gün də qədim musiqi alətləri qorunub saxlanılır, təbliğ olunur, gənc nəslə aşılanır. Bunun nəticəsidir ki, diyarımızda keçirilən el şənliklərində, müxtəlif festivallarda, konsert və digər tədbirlərdə qədim xalq çalğı alətlərinin də sədasını eşidir, milli musiqi mədəniyyətimizin zənginliyi ilə öyünürük.

Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvan Dövlət Filarmoniyasına qədim musiqi alətləri hədiyyə edilib. Avqustun 30-da hədiyyə edilmiş 18 adda, 20 sayda qədim musiqi alətləri filarmoniyaya təqdim olunub. Bu alətlər içərisində bərbəd, kamanlı rübab, şirud tənbur, çoğur, bəm rübab, çəng, qabaq kaman, musiqar, ağız qopuzu, ovuc neyi kimi alətlər dövrümüzdə ilk dəfə olaraq istifadə edilir. Gəlin bu alətlərin bəziləri haqqında mənbələrdən qısaca məlumat alaq.

Dahi Nizami Gəncəvinin əsərlərində adıçəkilən *bərbəd* XVI-XVII əsrlərə kimi Azərbaycanda istifadə olunmuş mizrabla çalınan simli musiqi alətidir. Udtipli alətlər ailəsinə mənsub olan bərbədin gövdəsi uda nisbətən böyük, qolu isə xeyli uzundur. Tarixi mənbələrdən, eləcə də Nizaminin "Xosrov və Şirin" poemasından məlum olur ki, bu alətin yaradıcısı öz dövrünün məşhur musiqiçisi və ifaçısı Barbəd olub.

*Ud* bir çox Şərq xalqları kimi, Azərbaycan ərazisində də geniş yayılmış mizrabla çalınan simli-dartımlı musiqi alətidir. Eyniadlı ağacdan düzəldiyi güman edilir. Udun özünəməxsus qüdrətli səsini dahi Məhəmməd Füzuli "Yeddi cam" əsərində təsvir edib.

*Tənbur* və ya *şirud* qopuzun bir növü olub, *"qolça qopuz"* adı ilə də tanınıb. "Dədə Qorqud" filmində həmin alətdən istifadə edilib.

Şərq ölkələrinə məxsus ən qədim musiqi alətlərindən biri də *kamanlı rübab*dır. XVII əsrədək Azərbaycanda da istifadə olunub və bir çox növləri yaranıb. Kamanlı rübabın iki simi olur. Bu alət, əsasən, rəqqasları, müğənniləri müşayiət edib.

Rübabın digər bir növü isə *bəm rübab*dır. Adından da göründüyü kimi bu alət bəm səsə malikdir.

XVII əsrədək Azərbaycanda *çoğur*dan da istifadə edilib. Bu alət qopuzdan sonra yaranmış ilk alətdir. Çoğurun əsasında isə *saz* aləti meydana çıxıb. Bu alətin adına Şah İsmayıl Xətainin əsərlərində də rast gəlinir.

Bu alətlər içərisində ən qədimi *çəng*dir. O, eramızdan əvvəlki dövrlərə aid edilən arfanın əcdadı sayılır. Diatonik şəkildə səslənir.

Balqabaqdan yaradılan musiqi aləti olan *qabaq kaman* isə kamançanın əcdadı hesab edilir. Bu alətdən sonra daha bir qədim musiqi alətimiz *çəğanə*, onun ardınca isə daha da təkmilləşdirilmə əsasında *kamança* formalaşıb.

*Ney* Azərbaycanla yanaşı, Türkiyə və İranda da geniş yayılıb. Bu nəfəsli alət ərazisinə görə fərqli formalarda istifadə edilir. Çox az rast gəlinən *ovuc neyi* də bu alətin növlərindən biridir. Bir oktava səsində diatonik səs düzümü ilə istifadə olunur.

Qədim nəfəsli alətlərdən biri də *musiqar*dır. Ondan XVII əsrədək ölkəmizdə istifadə edilib, hazırda isə dünyanın bir çox yerlərində ifa olunur.

*Tulum*, əsasən, Naxçıvan Muxtar Respublikasına məxsus qədim musiqi alətidir. Mənbələrə görə, çobanlar tərəfindən qoyun dərisindən hazırlanıb. Tarixi çox qədimlərə gedib çıxır.

Güclü və zil səsə malik *zurna* musiqi aləti də Azərbaycan ərazisində geniş yayılıb və mədəni həyatımızda özünəməxsus yer tutub. Zurnanın bir çox növləri vardır. Orkestrin tərkibində ifa olunan *qara zurna* da onlardan biridir.

Hədiyyə edilən qədim musiqi alətləri sırasında olan *balaban*ın isə əsasən, iki növünə rast gəlinir: *ansambl balabanı* və *aşı balabanı*.

Azərbaycan muğam üçlüyündə istifadə olunan *qaval* qədim musiqi alətlərimiz sırasında özünəməxsus yer tutur. Bu zərb aləti xanəndələrin ifaçılıq məharətini nümayiş etdirməsində əsas rol oynayır.

Orkestrə hədiyyə edilmiş digər bir qədim musiqi aləti isə *ağız qopuzu*dur. Ağızda saxlanılmaqla ifa olunduğu üçün bu adla məşhurlaşıb.

Qeyd edək ki, Naxçıvan Dövlət Filarmoniyasının nəzdində haqqında bəhs etdiyimiz hədiyyə olunmuş musiqi alətlərindən ibarət Xalq Çalğı Alətləri Orkestri formalaşdırılıb.

Bu günlərdə həmin orkestrin fəaliyyəti ilə tanış olmaq üçün filarmoniyaya getdik, bu mədəniyyət müəssisəsində orkestrin məşq prosesinin şahidi olduq. Necə deyərlər, hər musiqi alətinin özünəməxsus ifa tərzini eşitdik. Bu alətlərin ifaçıları çox böyük həvəslə tarixi yaşadan həmin alətləri "dilə gətirir"dilər. Çox keçməyəcək ki, məşq zamanı yüksələn bu səs-səda təkmilləşərək daha bir milli musiqi nümunəmizin peşəkar səviyyədə təqdimatı ilə nəticələnəcək.

Mövzu ilə bağlı söhbətimiz zamanı Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Əməkdar artist Səməd Əsgərov filarmoniyaya qədim musiqi alətlərinin hədiyyə edilməsini tarixi keçmişimizə, musiqi mədəniyyətimizə sahiblənməyimizin ən ali göstəricisi kimi dəyərləndirdi. Onun sözlərinə görə, bu təşəbbüs musiqi mədəniyyətinin zəngin tarixini yaşadan gənc musiqiçilər nəslinin formalaşmasında, orkestr üzvlərinin peşəkar ifaçılığına, nəticə etibarilə, konsert proqramlarının professional formada təqdim olunmasına xidmət edir. Həmçinin həmin qədim musiqi alətləri musiqi mədəniyyətimizin təbliği və tanıdılmasında da müstəsna əhəmiyyət kəsb edir. Belə ki, həm ifaçılar, həm də konsert proqramlarının iştirakçıları həmin qədim musiqi alətləri, eləcə də onlardan istifadə haqqında müvafiq bilik və təsəvvürə yiyələnirlər.



Orkestrin bədii rəhbəri, Naxçıvan Musiqi Kollecinin tələbəsi Orxan Məmmədov bildirdi ki, belə musiqi alətlərimizin araşdırılaraq öyrənilməsi, onların bərpa edilərək yenidən səsləndirilməsi mühüm əhəmiyyət daşıyır. Xalqımızın qədimlərdə istifadə etdiyi belə musiqi alətlərinin əsasında orkestrin yaradılması gənclərdə milli musiqi mədəniyyətimizə sahiblik hissini daha da yüksəldir. Orkestr üzvlərinin əksəriyyəti gənclərdən ibarətdir. Onlar bu alətlərin mükəmməl mənimsədicisi və gələcək nəsillərə daşıyıcısı rolunda iştirak edirlər.

Naxçıvan Musiqi Kollecinin tələbəsi Zakir Məmmədova qədim çəğanə aləti həvalə edilib. O, müəllimlərindən bu alətin sirlərini öyrənərək orkestrin heyətində öz yerini alıb. Onunla söhbətimiz zamanı bildirdi ki, çəğanə alətində ifa etməyi öyrənə bildiyim üçün çox qürurluyam. Bununla qədim musiqi alətimizi yaşadır, təbliğ edir, Naxçıvan musiqi mədəniyyətinin inkişafına, kiçik də olsa, töhfəmizi veririk.

Sözügedən orkestrin fəaliyyətə başlamasında Naxçıvan Musiqi Kollecinin müəllimi İxtiyar Seyidovun da danılmaz əməyi vardır. O, 2000-ci ildən kollecdə Saz ixtisasını tədris etməklə yanaşı, milli musiqi alətlərinin hazırlanması ilə də məşğul olur. Bu günədək yüzlərlə gəncə aşıq sənətinin incəliklərini öyrədib. Qədim musiqi alətlərimizi böyük ustalıqla hazırlayan İxtiyar Seyidov emalatxanasında unudulmuş qədim musiqi alətlərinin elmi tədqiqi, bərpası və təkmilləşdirilməsi üzrə bir çox işlər görüb və yüksək nəticələr əldə edib.

İxtiyar Seyidov bildirdi ki, sazın tarixini araşdırarkən onda bu işlərə həvəs yaranıb. Araşdırma apararkən bu alətlər ortaya çıxıb. Elə o zamandan da bərpa işlərinə başlayıb. Bunların hər birindən bir nümunə düzəltməyə səy göstərib. Bu alətlərin hər biri bir tarixdir.

İstedadlı sənətkar qədim musiqi alətləri əsasında özünəməxsus musiqi alətləri də hazırlayıb. Onlardan Naxçıvan tənburu, buta səntur, ovuc ney, bəm rübab, böyük türk dövlətlərinin simvolik aləti olan üçtərəfli simli alətin adını çəkə bilərik. Bu alətlərin gələcək nəsillərə çatdırılması üçün onları ifa etməyi tələbələrə öyrədirik.

İxtiyar Seyidovun bərpa etdiyi qopuz, rud, çəğanə, rübab, tənbur kimi qədim musiqi alətləri Naxçıvan Musiqi Kollecinə verilib və onların tədrisi həyata keçirilir. Onun düzəltdiyi və Naxçıvan Dövlət Filarmoniyasına hədiyyə edilən 20-yə yaxın alət əsasında isə yuxarıda da qeyd etdiyimiz orkestrin əsası qoyulub. Məqsəd isə odur ki, musiqi alətləri orkestr şəklində istifadə olunmaqla yaşadılsın, təbliğ edilsin.

Adıçəkilən musiqi alətləri incəsənətimizin mühüm parçasıdır. Bu alətlərin ifasında dahi Nizaminin hikməti, Füzuli məhəbbətinin qüdrəti, Koroğlunun nərəsi, Xətai hünərinin sədası, Aşıq Ələsgərin xoş avazı yüksəlir. Muxtar respublikamızda qədim musiqi alətlərinin bərpa edilməsi və onları ifa edən gənc nəslin yetişdirilməsi qədim tariximizə, zəngin mədəniyyətimizə sahiblik amalı kimi yüksək dəyərə malikdir.

✍ **Gülcamal TAHİROVA**

# Hakimlər Komitəsinin sədri Naxçıvanda səfərdədir



*Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) Hakimlər Komitəsinin sədri avstriyalı Fritz Stuxlik hakimlər üçün seminarda iştirak etmək məqsədilə muxtar respublikamıza gəlib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, AFFA və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə keçirilən seminarda komitə sədri çıxış edərək bildirib ki, seminarın keçirilməsində məqsəd hakimlərin bu sahədəki bilik və bacarıqlarının təkmilləşdirilməsidir. Gənc ədalət təmsilçilərinin qatıldığı seminarda oyunlar zamanı mübarizə epizodları, penalti zərbələri, oyundankənar vəziyyətlərin qaydaları, həmçinin muxtar respublika çempionatının son turunda qeydə alınmış maraqlı məqamlardan ibarət videoçarxlar nümayiş etdirilib, müzakirələr aparılıb.



Sonra Fritz Stuxlik oyun qaydalarına edilmiş əlavə və dəyişikliklərlə bağlı ətraflı məlumat verib. Qeyd edək ki, seminar iki gün davam edəcək.

Keçirilən oyunlardan sonra Hakimlər Komitəsinin sədri Fritz Stuxlikin fikirlərini öyrəndik: "Burada əsas vəzifəm hakimliklə bağlıdır, yəni əsas işim hakimliyin səviyyəsini yüksəltmək, inkişaf etdirmək, bildiklərimizi öyrətmək və səhvləri müzakirə etməkdir. Naxçıvan çempionatındakı oyunları izlədikdən sonra iclasımız olacaq. Çempionat oyunlarından, eyni zamanda digər beynəlxalq turnirlərdən olan videoyazıları izləyib oyunda baş verən hadisələri, qayda pozuntularını analiz edəcəyik. Naxçıvanda izlədiyim oyunlarda ən çox məni gənc hakimlərin fəaliyyəti sevindirdi. Onların gənc, sağlam, idmançı görkəmində olmaları yaxşı haldır. Bu həm də gələcək üçün atılmış ən mükəmməl addımdır. Naxçıvan Futbol Federasiyasının bizimlə birgə çalışması, əməkdaşlıq etməyimiz sevindirici haldır. Hakimlərimizin bura tez-tez gəlmələri, seminarlarda iştirak etmələri gələcəkdə muxtar respublikada futbol və hakimliyin səviyyəsini xeyli yüksəldəcək. Bu işdə diqqət yetiriləcək məqamlardan biri gənc referilərin yol verdikləri səhvlərə həssaslıqla yanaşmaqdır. Nəzərə almaq lazımdır ki, burada insan amili var və bu, normaldır. Həmin səhvlər zaman keçdikcə azalacaq, eyni zamanda bu səhvlərin aradan qaldırılması onların gələcəkdə püxtələşmələrinə səbəb olacaq. Qarşıdakı aylar üçün biz planlar hazırlamışıq və məqsədimizə qısa vaxt ərzində çatacağımıza inanıram. Yerli federasiyanın futbolun inkişafı üçün atdığı addımlar təqdirəlayiqdir. Futbol Federasiyanızın bu cəhdi, eləcə də AFFA-nın dəstəyi, birgə işi sayəsində futbolun qısa zamanda Naxçıvanda inkişaf edəcəyinə əminəm. Mən futbolu dəstəkləmək üçün hamını oyunlara dəvət edirəm. Belə gözəl məkanda futbolun inkişafına azarkeşlər də öz dəstəyini verməlidirlər".

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Cəfərov Məmmədəli Zeynalabdin oğlunun adına olan JN-301A inventar nömrəli, 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayıır.

### *Bildiriş*

"Cahan Red-2" MMC (spirtsiz içkilərin satışı) – VÖEN-0200701941 fəaliyyətini dayandırdığından ləğv olunur.

* * *

"Mülki-Tikinti" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200275311) fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 836